**Mövzu 7. Yunanıstan, Andorra və Vatikan dövlətlərində beynəlxalq turizmin müasir vəziyyəti**

Plan

1. Yunanıstanın coğrafi mövqeyi,təbii iqlim şəraiti və əsas turizm bölgələri.
2. Yunanıstanın turizm bölgələrinin xarakteristikası.
3. Andorranın coğrafi mövqeyi,relyefi, təbii iqlim şəraiti.
4. Andorranın turizm infrastrukturu.
5. Vatikan katolik dini mərkəzi. Romanın iqtisadiyyatında turizmin yeri.
6. Vatikanın turizm marağı yaradan tarixi-maddi mədəniyyət abidələri.

## 1.Yunanıstanın coğrafi mövqeyi,təbii iqlim şəraiti və əsas turizm bölgələri.

Yunanıstan şimalda Bolqarıstan və Makedoniya, şimal-qərbdə Albaniya, şimal-şərqdə Türkiyə ilə həmsərhəddir. Cənubda Aralıq, şərqdə Egey,qərbdə İon dənizlərinin suları ilə əhatə olunmuşdur. Ölkə ərazisinin beşdə birini: Krit, Evbeya, Rodos, Lesbos adaları təşkil edir.

Relyefinə görə Yunanıstan dağlıq ərazidir. Yunanıstanın materik hissəsinin qərb və cənub-qərbində yerləşən uzun və hündür daölar silsiləsi Pind sistemini təşkil edir.Ölkənin şərqində ucalan daha yüksək dağ massivində ən hündür zirvə olan Olimp dağı ( 2917m) yerləşir.Ərazisinin böyük hissəsi dəniz səviyyəsindən 200-1200 m yüksəklikdədir.

Ölkənin sahil xətti girintili- çıxıntılıdır. Çayları azsulu və gəmiçilik üçünyararsızdır. Nisbətən böyük çayları Alyakmon, Axeloos, Strimin (struma), Nestos hesab edilir.Ərazisinin 11 %-i meşələrlə örtülüdür. Iqlimi əsasən Aralıq dənizi tiplidir.Yay isti və quru, qış qısa və yumşaq keçir.Dağlarda iqlim nisbətən soyuq və daha rütübətlidir. Ölkənin şimalında yanvarın orta temperaturu müsbət 4, egey dənizinin cənub hissəsində 11-13 dərəcəyə çatır. Ovalıq ərazilərdə havanın orta temperaturu bəzi hallarda 40-45 dərəcəyə qədər yüksəlir. Sahil bölgələrində dənizdən əsən yel havanın hərarətini nisbətən yumşaldır.

Saloniki,Patri, İraklion və Volos Afinadan sonra ölkənin iri şəhərləri Aleksandropolis, İraklion, Patri, Rodos və Saloniki isə əss limanlarıdır.

İnzibati ərazisi 13 yerarxiyadan ibarətdir. Ölkə qanunvericiliyi Roma hüququna əsaslanır. İcraedici hakimiyyət prezidentə və Baş Nazirin rəhbərlik etdiyi hökümətə məxsusdur. Qanunvericilik fəaliyyətini bir palatalı parlament həyata keçirir.

25 mart- İstiqlaliyyət günü (1821-ci ildə Yunanıstanın azadlığı uğrunda müharibənin başlanması günü) Milli bayram kimi qeyd olunur.

1830-cu ildə Yunanıstan müstəqillik əldə etmişdir. Yunanıstanın əlverişlicoğrafi mövqeyi, iqlimi, tarixi, turist axınının istiqaməti və s.nəzərə alınmaqla dörd turizm bölgəsinə ayrılır: Orta və ya Mərkəzi Yunanıstan – qədim Ellada; Şimali Yunanıstan; Poleponnes yarımadası və Yunanıstan adaları.

## 2.Yunanıstanın turizm bölgələrinin xarakteristikası.

Afina Yunanıstanın paytaxtı olmaqla turistlərin toplaşdığı mühüm mərkəzlərdən biridir. Müasir Afina orta əsrlərədək kiçik şəhər olmuşdur. 1821-1827-ci illərdə türk

işğalçılarına qarşı milli azadlıq mübarizəsi başa çatdıqdan sonra Afina ölkənin inzibati və mədəni mərkəzinə çevrilmişdir.

Afinada antik Roma və Bizans dövrünə aid olan abidələr çoxdur. Bunlardan ən məşhuru Afina Akropoludur. Akropolun müdafiə divarlarının bir hissəsi hələ e.ə. II minillikdə tikilmişdir. E.ə. VI əsrdə Akropold bir çox əlavə binalar tikilmiş, heykəllər ucaldılmışdır.

Afinaya təntənəli giriş-Propiley ( e.ə.V əsr), Parfenon ( Bakirə Afina məbədi, Afina-Parfenos) və s. Akropolun yaxınlığında Dionis teatrı, Odeon, Zevs məbədi (b.e-nın II əsri) və s.yerləşir. Şəhərin arxeoloji və tarix muzeylərində qədim dünyanın mədəniyyət abidələri qorunub saxlanılır. E.ə. V əsrə Perikl ( Afina xalqının rəhbəri) dövrünə aid olan abidələr, onların arasında xüsusi yer tutur. “ Tarixin atası” Herodo, filosof Anaksaqor, dahi yunan dramaturqu Sofokl, Heykəltarş Fidey və Qədim Yunanıstanın digər məşhur alim, yazıçı və rəssamları da həmin dövrdə Afinada yaşamışdır.

E.ə 548-ci ildə yanmış Pirineyli Apollon məbədinin qalıqları parnas dağlarının cənub ətəyində-Delfada yerləşir. Delfada Apollon məbədinin qalıqlarındn əlavə Dionis tetrı və stadionun qalıqları da saxlanılır.

Afinadan 42 km aralıda məşhur Marafon ərazisi yerləşir.E.ə. 490-cı ildə Afina ordusu burda fars qoşunlarını məğlub etmişlər.1896-cı ildə Afinadakeçirilən ilk Olimpiya oyunları zamanı, Afina ilə Marafon arasındakı trassda ilk dəfə olaraq qçış üzrə yarış keçirilmişdir.

Qədim akropolun, antik teatrın və Bizans dövrünə aid iyirmi tağı olan körpünün yerləşdiyi Larisa şəhəri, ingilis şairi Bayronun Yunanıstanın azadlığı uğrunda döyüşdüyü və 1824-cü ildə vəfat etdiyi Mesolongion şəhəri, Bizans mədəniyyətinin nadir abidələrindən olduğu Dafni şəhəri bu bölgənin görməli tarixi yerlərindəndir.

Afinadan cənuba doğru sahil zolağı, yunanıstanın ən məşhur kurort ərazilərindəndir. Bu ərazidə e.ə. V əsrə aid Paseydon məbədi və digər mədəniyyət abidələri də vardır. Qlifada, Muliaqmen, Loqonissi və s. kurortlar burada yerləşir. Kifisiya kurortu zəngin flora və gözəl mənzərəsi ilə turistləri cəlb edir. Afinadan şimalda və şimal-şərqdə yerləşən Porto-Fafti, Lutsa, Rafina, Nea-Marki və Şiniya narın qumlu çimərlikləri ilə seçilir.

Afinadan qərbdə yerləşən Lutrakion balneoloji kurortu geniş şöhrət qazanmışdır. Mərkəzi Yunanıstanın şərq sahillərində yüksək radioktiv suları olan Kammena, Vorla, İpati ( Lamiya yaxınlığında) və Platistomon ( Lamiyadan 30 km aralı) balneoloji kurortları fəaliyyət göstərir.

Volos şəhəri yaxınlığında Pilion dağı ( 1651 m) və ətraf ərazilər dağlarda istirahət üçün bütün Yunanıstanda ən əlverişli şəraiti olan yerlərdir. Larisadan 50 km şimal-qərbdə perspektivli Platamon kurortu yerləşir.

Makedoniya, Roma və Bizans dövrlərinin tarixi abidələri ilə zəngin turizm bölgələrindən biri də Şimali Yunanıstandır. Saloniki şəhəri e.ə. VI əsrdə Bizans imperiyasının iri ticarət mərkəzi olmuşdur. Müqəddəs Georgi rotondası ( latın dilindən tərcümədə- dairəvi) (V əsr), Müqəddəs Dimitri ( V əsr), Müqəddəs Sofiya bazilikaları ( VII-VIII əsrlər), Apostollar kilsəsi ( XIV əsr) xüsusilə seçilən abidələrdəndir. Salonikidən cənubda Kasandra, Sitoniya yarımadalarında əla çimərliklər vardır.

Peloponnes turizm bölgəsi Peloponnes yarımadasını tamamilə əhatə edir. O Balkan yarımadası ilə uzunluğu 6,3 km olan Korinf keçidi ilə birləşir. Bu bölgəyə gələn turistlər Korinf, Miken, Epidavros, Sparta kimi qədim şəhərləri və Olimpin xarabalıqlarını ziyarət edirlər.

E.ə. IX əsrdə salınmış Korinf Peloponnesdən Elladaya gedən yolu nəzarətdə saxlamışdır. Korinfdə Akrokorinf istehkamı ( dəniz səviyyəsindən 900 m yüksəklikdə) kimi antik dövrün memarlıq abidəsi qorunub saxlanmışdır. İstehkamın içərisində Afrodita və Apollon məbədləri yerləşir.

Mikendə e.ə.XIV əsr qalasının qlıqları saxlanmışdır. Burada çar Aqamemnonun və onun arvadı Klitemnestranın məqbərələri, həmçininqiymətli əşyalar saxlanılan anbar aşkar edilmişdir.

Epidavros təəccüb doğuran akustikası olan qədim teatrı ilə tanınır.E.ə.IV əsrdə tikilmiş və 16 min tamaşaçı üçün nəzərdə tutulmuş həmin teatrda indi də müxtəlif musiqi və teatr tamaşaları təşkil olunur. Epidavrosu dünyanın ilk balneoloji kurortu ghesab etmək olar. Epidavrosda Eskulap məbədinin qalıqları qorunub saxlanmışdır.

Sparta şəhərində qədim dövrün abidələrinin az bir hissəsi qorunub saxlanılmışdır. E.ə.XII əsrədək Spartada qədim Miken mədəniyyətinin bir neçə mərkəzi fəaliyyət göstərmişdir. E.ə. VIII əsrdə yaranmış Sparta dövləti uşaqların tərbiyə üsulu ilə də məşhur olub.

Olimpiya qədim Yunanıstanın bədii-əyləncə mərkəzidir.E.ə. V əsrdə Allahların və insanların çarı və atası, ildırım, şimşək və yağış allahı Zevsin şərəfinə məbəd tikilmiş və heykəl qrupları ilə bəzədilmişdir.Olimpdə hər dörd ildən bir ( e.ə. 776-cı ildən 394-cü ilədək) zevsin şərəfinə bayram günlərində məşhur Olimpiya oyunları keçirilirdi.

Peloponnesin şimal sahillərində bir sıra dəniz kurortları Eyon, Diapokton, Ksilokstron yerləşir. Patradan 92 km aralıda Kilini,  Pirqosdan cənubda isə Kayyafa kurortu yerləşir. Peloponnesin balneoloji kurortları arasında  Kalini,Bani, Kalabriya, Metana və Milon daha çox tanınır.

Yunanıstan adaları Krit, Evbeya və Rodos turizmin inkişafı üçün əlverişli şəraitə malikdirlər. Krit sahəsinə görə ən böyük adadır.Adanın ərazisində Knossda qədim sarayın xarabalıqları ( e.ə. XIV əsr) və Fastosdakı sarayın qalıqları qorunub saxlanılır.

Egey dənizində yerləşən  yunan adaları da tarixi abidələrlə zəngindir. Kritdən sonra ikinci böyük ada olan Evbeyada müalicəvi mineral mənbələri olan Edipos kurortu yerləşir. Bu adanın Xalkisdən Aliveriona qədər olan ərazisi əlverişli şimərlik təşkil edir.

Rodos adası da çimərlikləri ilə tanınır. Burada antik dövrə aid çoxsaylı memarlıq abidələri ( o cümlədən Lindosdakı akropol) vardır.Egey dənizində yerləşən kiçik adalardan: Deks adası,Milos adası, Egina adası, tanınmış kurort mərkəzi olan Samafrakiya adası daha çox tanınır.

Salomin adasında turistlərin qəbulu üçün lazımi maddi-texniki baza vardır. Saronikos körfəzində yerləşən Paros adası daha mənzərəlidir.Ada şam meşəsi ilə örtülüdür. İon dənizində yerləşən Korfi adası özünün çoxsaylı mehmanxanaları və kazinoları ilə ölkənin təmtaraqlı kurortu hesab edilir.

1970-ci illərdə Yunanıstana əsasən Böyük Britaniya və Almaniyadan turistlər gəlirdilər. Ayrı-yrı ölkələrdən gələn turistlərin səyahət məqsədi də müxtəlif olur. Belə ki, Britaniyadan gələn turistlərin əksəryəti istirahət ( 62%), 3%-i isə tarixi- mədəniyyət abidələri ilə yaxından tanış olmaq məqsədilə bu ölkəyə səyahət edirlər.İspan,Yapon və İtalyan turistlər isə mədəni-tarixi turizmə üstünlük verirlər. Turistlərin əksəryəti ölkəyə iyul-avqust aylarında, nisbətən az hissəsi iyun və sentyabrda, martda və oktyabrda gəlir.

## 3.Andorranın coğrafi mövqeyi,relyefi, təbii iqlim şəraiti.

Andorra Avropanın cənub qərbində yerləşir. Avropanın mikrodövlətləri içərisində ən böyüyüdür. Ölkə şərqi Piriney dağlarının cənub yamacında , Ebro hövzəsinə aid edilən Seqre çayının qolu Valiranın orta və yuxarı axın boyu dağ dərəsində yerləşir. Onu qərbdən , şərqdən və eləcə də Fransa tərəfindən hündürlüyü 3000 m-ə qədər olan dağlar əhatə edir.

Andorra Prineyləri adlanan bu dağların ən hündür zirvələri ölkənin qərbindədir. Koma Pedros zirvəsi dəniz səviyyəsindən 2946, Kara zirvəsinin hündürlüyü isə 2629 metrdir. Ölkənin səthi şimaldan cənuba meyilli olsa da heç yerdə hündürlük 800 metrdən aşağı enmir. Andorranın İspaniya ilə əlaqələrinin daha geniş olması bir çox səbəblər , o cümlədən ölkənin coğrafi mövqeyi və relyefi ilş bağlıdır. Andorra relyefində buzlaq dövrünün təsiri güclü hiss olunur. Valira çayı dərəsində qədim buzlaqların fəaliyyəti açıq-aydın çoxdur. Dağlarda mənzərəli buzlaq mənşəli ggöllərə rast gəlmək olar. Çaylarda və göllərdə forel balığı üstünlük təşkil edir.

Valira və Ordino çay dərələrinin bir-birinə yaxınlaşdığı yerlər Andorranın ən məskunlaşmış bölgəsidir. Ölkə dağlıq ərazidə yerləşdiyindən buranın iqlim, torpaq və bitki örtüyü üçün hündürlük qurşaqlarının üstünlük təşkil etməsi səciyyəvidir. Andorrada dağlrda yay ayları sərin, qış isə soyuq keçir. Yanvarda dağlarda temperatur mənfi 15 dərəcəyədək enir. Ərazi kiçik olsa da şimala nisbətən cənubda iqlim sərt deyildir. Cənubda yanvar ayının orta temperaturu mənfi 2, iyulda isə müsbət 20 dərəcədir.

1993-cüilədək Andorra rəsmi şəkildə Fransa və İspaniya protektorluğu altında feodal knyazlığı şəklində idarə olunurdu. Əlbir rəhbərlər (Fransa prezidenti və Urxel yepiskopu) Vikari adlanan ölkə başçısını təyin edirdilər. Vikari Fransa və İspaniyanın təyin etdiyi nümayəndə olsa da, mütləq andorralı və daima Andorra ərazisində yaşayan şəxs olmalı idi.

1993-cü ildə qəbul olunmuş yeni konstitusiyanın müstəqillik  və dövlət quruluşu barədə maddələrinə müvafiq olaraq həmin ilin iyul ayında Fransa Respublikası və İspaniya krallığı Andorranın yeni müstəqillik statusunun əsasını qoydu. Yeni konstitusiyaya əsasən Andorra parlamentli knyazlıq şəklində idarə olunur. Konstitusiyaya görə Andorra beynəlxalq müqavilələr bağlayarkən daxili təhlükəsizlik, müdafiə, sərhəd problemlərinə dair hər hansı bir əhəmiyyətli addım atarsa, mütləq fransa və İspaniya ilə məsləhətləşməlidir.

Ali qanunverici orqan bir palatalı parlamentdir. Andorrada bu baş Şura adlanır. Onu qeyd edək ki, Avropada tarixilik baxımından İspaniyadan sonra ikinci parlament Andorrada yaranıb. Ölkə parlamenti 1419-cu ildən fəaliyyət göstərir. Baş şura hökumətin fəaliyyətinə nəzarət edir. Sindik adlanan parlament sədrini, onun müavinlərini və Baş naziri seçir.

## 4. Andorranın turizm infrastrukturu.

Andorrada yaşayanların üçdə ikisi hissəsi şəhər əhalisidir. Ölkənin ən böyük şəhəri Andorrala-Velyadır. Şərqi Piriney daəlarının ətəklərində Valira çayı sahillərində yerləşmiş bu şəhərin təbii mənzərəsi çox gözəgəlimlidir. Əvvəllər kiçik əyalət şəhərini xatırladan paytaxtda son 50 ildə ultramüasir mehmanxanalar, restoranlar, kempinqlər, dövlət müəssisələri, mədəni-marif ocaqları tikilib istifadəyə verilmişdir.Ölkənin paytaxtı beynəlxalq əhəmiyyətli turizm mərkəzinə çevrilmişdir. Şəhərin mərkəzi hissəsində 1508-ci ildə tikilmiş və yerlilərin “Vadilər malikanəsi” adlandırdıqları bina ucalır. Uzun müddət ölkə parlamenti, höküməti, mehmanxaxası, hətta həbsxanası bu binada yerləşmişdir. Hal hazırda bu bina turistlərin böyük marağına səbəb olan obyektlərdən biridir.

Andorranın memarlıq abidələri arasında Sant-roma dovinya və Sant-dels-Vilars (IX-XI əsr), Sant-Culiya-de-Loriya, Sant-Joan-de Kasel-les və Santa Koloma (XII əsr) kilsələri seçilirlər.VII-X əsrlərə aid ərəb qalalarının, Qədim Roma dövrünə aid iki ədəd tağlı körpünün qalıqları, Ankler dağında de*Fin qrafları qəsrinin(XII əsr) xarabalıqları, uca qüllələri və interyerində taxta oymaları olan kiçik kilsə (XI-XII əsr) qorunub saxlanmışdır.

XX əsrin 40-cı illərinə kimi Andorraya gələnlər əsasən balneoloji kurortlarda istirahət etməyə, müalicə olunmağa və ya qışda xizəkdə sürüşməyə üstünlük verirdilər.

XX əsrin 50-ci illərindən Fransa və İspaniyada turizm sahəsi sürətlə inkişaf etməyə başladığından bu Andorraya da öz təsirini göstərmişdir. Çünki şimaldan əsasən Fransadan İspaniyaya və əksinə istiqamətdə İspniyadan Fransaya hərəkət edən turistlər Andorradan keçməli olurdular. Fransızlar və İspanlar ölkəyə əsasən istirahət və bayramlarda gəlirdilər.

1950-ci ildə Soldeu kəndində Fransızlar ilk Alp klubu təşkil etmişlər. Hazırda burada ümümi uzunluğu 80 km olan beş dağ-xizək məntəqəsi fəaliyyət göstərir. Bu məntəqələr hər il təxminən 10 milyon turist və ekskursiyaçıya xidmət edir.

Andorra iqtisadiyyatının əsasını əsasən ticarət və xarici turistlərə xidmət sahələri təşkil edir. Dünyanın bütün guşələrindən turistləri özünə cəlb edən kustar məmulatlar, suvenir istehsal edən kiçik emalatxanalar fəaliyyət göstərir.

Andorrda xidmət və turist-mehmanxana infrastrukturu yaxşı inkişaf etmişdir. Azad, rüsumsuz ticarət, yay və qış kurortları turistləri cəlb edən əsas amillərdir. Andorranın mənzərəli təbiəti və dağ-xizək idmanı ilə məşğul olmaq xarici turistləri bu ölkəyə cəlb edir.

**5.Vatikan katolik dini mərkəzi. Romanın iqtisadiyyatında turizmin yeri.**

İtaliyanın paytaxtı roma ərazisində (Monte-Vatikano təpəliyi) yerləşən şəhər-dövlətdir. Romada və onun ətrfında ümumi sahəsi 0,7 kv.km olan üç kilsə (Santa-Mariya, Macore, San Covanni Laterano və San-Paolo-fuori le-Mura), həmçinin bir sıra saraylar və villalar Vatikana məxsusdur. Roma yaxınlığında Kostel-Qandolfo qəsrində papanın yay şəhərkənarı iqamətgahı yerləşir. Vatikanın 800 nəfər daimi vətəndaşı vardır. Onların böyük əksəryəti italiyadan və isveçrəlilərdən ibarətdir.

Vatikan katolik dininin dünyəvi mərkəzidir. Vatikanın əhalisi 70 dini şəxsdən, 104 isveçrəli qvardiyaçıdan, 150 papa jandarmından, təxminən 500-ə qədəri mülku şəxslərdən ibarətdir. Dövlət quruluşuna görə Vatikan mütləq teokratik (Allahın hakimiyyəti) monarxiyadır. Dövlət başçısı Roma papasıdır. Mütləq hakimiyyət Papaya məxsusdur. Papanın yerində olmadığı vaxtlarda Müqəddəs Roma kilsəsinin Kamerlandı Vatikanın işlərinə rəhbərlik edir.

Vatikanın həmçinin öz hökuməti-Roma kuriyası var. Vatikan iri multimilli şirkətlərin səhimlərinə malikdir. ABŞ, Böyük Britaniya və İtaliyanın iri bankları ilə sıx əlaqəsi vardır. Vatikanın səhimlərinin və digər dəyərlərinin ümumi məbləği qeyri rəsmi olaraq 13,0 milyard ABŞ dolları həcmində qiymətləndirilir. Filatelistlər üçün poct markaları satışı, bütün dünya üzrə Roma katoloklərinin üzvülük haqları, poçt açıqçaları və suvenir satışı Vtikanın daimi gəlirini təşkil edir. Xarici turizm Vtikan iqtisadiyyatının mühüm hissəsidir. Papa dövlətinin buraxdığı sikkələr əsasən numizmatlar üçün nəzərdə tutulur. Vatikanda toplanana misilsiz zəngin mədəniyyət və incəsənət xəzinəsi turistlərin böyük marağına səbəb olur.

## 6.Vatikanın turizm marağı yaradan tarixi-maddi mədəniyyət abidələri.

Vatikanın turizm marağı yaradn maddi-mədəniyyət abidələri Meydan, Müqəddəs Pyotr kilsəsi, sraylar və s.-dir. Dünyada ən böyük katolik kilsə sayılan Bramante, Rafael, Mikelncelo və Perussinin ölməz yaradıcılıq nümunəsi olan Müqəddəs Pyotr kilsəsi, İntibah dövrünə aid çoxsaylı kilsə tikililəri arasında birinci yeri tutur. Kilsənin tikintisinə 1452-ci ildə başlanmış, 120 il tikinti davam etmişdir. Mikelancelonun "Piyetta" adlanan heykəllər qrupu kilsənin interyerini bəzəyən nadir bədii sənət nümunələridir. Müqəddəs Pyotr kilsəsinin önündəki Meydan dünyanın ən gözəl meydanlarından biridir.

Vatikanın digər görməli yerləri arasında Sikstin (XV əsr), Paolina (XIV əsr), və V Nikolay (XV əsr) kapellaları, Reca saray kompleksi (XVI əsr), Skala Reca (XVIII əsr), Borcanin aparmentləri (XVI əsr), San-Demozo və Belvederin möhtəşəm sarayları (XVI əsr), IV Piyin bağları xüsusilə seçilir.

1603-cü ildən fəaliyyət göstərən Papa Elmlər Akademiyası fizika, riyaziyyat və təbiət elmlərinin tədqiqinə yardım göstərir. Akademiyanın üzvləri müxtəlif ölkələrin tanınmış alimləri arasından seçilərək Papa tərəfindən təyin olunurlar.

Müxtəlif ölkələrdən Vatikana gələn zəvvarlar və turistlər Müqəddəs taxt-taca öz iyanələrini təqdim edirlər.